BAKI XƏBƏR
8
23-25 AVQUST 2025
№ 149 (5471)

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# Rusiyada azərbaycanlıların diaspor quruculuğu heç bir ölkədə olmayan problemlərdən keçir...

**Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xaricdə yaşayan azərbaycanlılarla, diaspor və lobbi təşkilatları ilə əlaqələr qurulmağa başladı. Bu prosesə, xüsusilə mərhum prezident Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə start verildi.**

Dünyanın müxtəlif ölkələrində, o cümlədən də Rusiyada Azərbaycan diasor təşkilatları fəaliyyət göstərib. Əvvəlki dövrlərdə Azərbaycan diasporunun fəaliyyətinə heç bir maneə olmasa da, son dövrlər diasporumuz çox ağır problemlərlə üzləşib. Rusiyanın yürütdüyü antiazərbaycan siyasəti nəticəsində bu ölkə ilə Azərbaycan dövləti arasında münasibətlər kəskinləşib. Bu gün Rusiyada Azərbaycana, azərbaycanlılara qarşı xoşagəlməz münasibətlər fonunda diasporumuz da ciddi çətinliklər içindədir. Mətbuatda gedən məlumatlara diqqət yetirsək, Rusiyadakı antiazərbaycan qüvvələrinin çıxışlarına diqqət kəsilsək görərik ki, Rusiya dövlətinin əsas hədəfi diasporumuzu iflic vəziyyətə salmaqdır. Bilirik ki, Yekaterinburqda baş verən faciə zamanı diasporumuzun aktivliyi Rusiya dövlətinin acığına gəlib və bundan sonra diaspor təşkilatlarımıza və onların rəhbərlərinə basqılar artıb. Yekaterinburqdakı Azərbaycan diasporunun rəhbəri Şahin Şıxlınski və onun oğluna qarşı Rusiyanın əlaqədar qurumlarının həyata keçirdiyi "cəza tədbirləri", onların həbsi, eyni zamanda digər diaspor lideri Elşən İbrahimovun Rusiyadan deportasiya edilməsi çox ciddi mətləblərdən xəbər verir. Bu gün Rusiyadakı diasporumuzun fəaliyyətinin tamamilə dayandırılması üçün Rusiya qurumları əllərindən gələni edir.

Yeri gəlmişkən, bir müddət əvvəl Rusiyadan deportasiya edilən E.İbrahimov bildirib ki, Moskva vilayətindəki Azərbaycan diasporu dağılacaq, çünki indiki şəraitdə heç kim orada işləmək istəmir: "Bu, milli təhlükəsizliyə təhdiddir. Diaspora çox güman ki, dağılacaq, çünki indiki vəziyyətdə heç kim işləmək istəmir"-deyə o, mətbuata açıqlamasında bildirib.

Rusiyada ağır təqib altında yaşayan Azərbaycan diasporunun yeni şəraitdə təşkilatlanma problemləri aktualdır. Bizim Rusiyadakı diasporumuzun yenidən təşkilatlanması prosesi necə başlamalıdır? Rusiya diasporunun bugunu aydındı, bəs gələcəyini necə görmək olar?

Tarix elmləri doktoru, professor, siyasi ekspert Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə bildirdi ki, diaspor hər bir müstəqil dövlətin xarici ölkələrdə imicini artıran, onun problemlərinin həllinə dəstək verən qurumlardır, Azərbaycan xalqı da vətənpərvər xalq olduğuna görə başqa ölkələrdə yaşayan azərbaycanlılar Vətənə bağlıdırlar: "Vətənə bağlı olduqları üçün də bu cür qurumlar yaradırlar. Mən xarici ölkələrdə - İsveçdə, Almaniyada və digər səfərlərdə olarkən Azərbaycan diasporunun fəaliyyətini görmüşəm, tanış olmuşam. Qərb ölkələrində Azərbaycan diasporu əsasən qardaş Türkiyə diasporu ilə əməkdaşlıq edir, hətta tədbirlərini də bir yerdə keçirirdilər.

Qaldı Rusiyadakı Azərbaycan diasporuna, burda vəziyyət başqadır. Çünki qanunlar işləməyən, avtoritar, totalitar rejimlərdə başqa ölkələrin diasporunun işləməsi çox çətindir, bir çox hallarda müşküldür. Həmin ölkələr o dövlətə münasibət




yaxşı olduğu vaxtlarda diaspor təşkilatlarına dəyib-toxunmurlar, fəaliyyətinə şərait yaradırlar, maneçilik törətmirlər. Münasibətlər pisləşəndə isə diasporların nümayəndələrinə qarşı saxta ittihamlar irəli sürülür, təzyiq siyasəti yeridilir. İndiki dövrdə Rusiyanın Azərbaycana qarşı yeritdiyi siyasət həm də diaspora təzyiqlərlə özünü göstərir. Yekaterinburqdakı hadisə, ordakı diaspor rəhbərinin şərlənərək həbsi və sair bunun göstəricisidir. Mənə belə gəlir ki, yaxın gələcəkdə Rusiyada rejim dəyişərsə, qanunlara söykənən bir hakimiyyət qurularsa orada olan Azərbaycan diasporunun da, digər ölkələrin də diasporunun fəaliyyətində çox müsbət irəliləyişlər ola bilər.

Baxmayaraq ki, təzyiqlər, təqiblər, saxta ittihamlar var, bu ağır şəraitdə fəaliyyət göstərən bizim diaspor təşkilatlarımızın fəaliyyətini təqdir etmək, onlara ruh vermək lazımdır. Onlara lazım gəldikcə səfirlik vasitəsilə də dəstəyi əsirgəməməliyik. Çünki diaspor elə bir qurumdur ki, onun fəaliyyəti vacibdir. O diaspor qurumlarının rəhbərləri və təmsilçiləri orda yaşayır, fəaliyyət göstərirlər, hətta bir çoxları Rusiya vətəndaşıdır, onların orda iş yerləri var. Gələcəkdə onların işdən çıxarılmasının, hüquqlarının tapdanmasının qarşısının alınması üçün biz beynəlxalq qurumlarla və səfirlik vasitəsilə diplomatik səylərimizi artırmalıyıq".

Rusiyadakı diaspor təşkilatlarımıza qarşı qanunsuz hərəkətlərin əsas səbəblərinin birinin Rusiya-Ukrayna müharibəsi olduğunu deyən M.Zülfüqarlı qeyd etdi ki, Rusiyanın canlı qüvvəsi tükəndiyindən, Şimali Koreyadan muzdlu əsgərlər gətirməklə yanaşı, başqa ölkələrdən, qonşu dövlətlərdən gəlib orda yaşayıb işləyən insanları da bu müharibəyə cəlb etmək istəyir. "Yəni bu təzyiqlərin kökündə olan səbəblərdən biri budur ki, Rusiya orda yaşayan azərbaycanlıları da bu çirkin müharibəyə cəlb etmək və öz çirkin, məkrli niyyətlərinə qurban vermək istəyir. Əlbəttə, buna qarşı bizim diasporumuz mübarizə aparır. ABŞ, Azərbaycan və Ermənistan rəhbərlərinin Vaşinton görüşündə apardıqları söhbətin, gəldikləri razılaşmanın əsas səbəbi müharibəyə son qoymaqdır. Əgər yaxın gələcəkdə Rusiya ilə Ukrayna arasındakı müharibəyə son qoyularsa artıq bu qorxunun, yəni azərbaycanlıların rus ordusuna cəlb edilməsi, müharibədə ölümə göndərilməsinin də qarşısı alınar. Bu, münasibətlərin normallaşmasında, diasporun fəaliyyətində öz təsirini göstərir.

Hələ bütün hallarda müharibə bütün sahələrə təsir etdiyi kimi, diasporun da fəaliyyətini iflic edir. Bütün bu hadisələrin baş verməsinin, münasibətlərin korlanmasının günahını biz Ukrayna-Rusiya müharibəsində görməliyik. Müharibə qurtararsa, digər sahələrdə olduğu kimi diasporun da fəaliyyətində normallaşmanı görə bilərik. Özü də bu tək Azərbaycana qarşı deyil, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Qazaxıstan və digər ölkələrin diasporuna da Rusiyada mənfi münasibət var".

M.Zülfüqarlı hesab edir ki, Rusiyadakı Azərbaycan diasporunun qarşılaşdığı bu ağır vəziyyət keçib gedəcək, bu daimi hökm sürməyəcək, yaxın gələcəkdə münasibətlərin normallaşmasının şahidi olacağıq. "Azərbaycan diasporu öz fəaliyyətini normal şəkildə bərpa edəcək"-deyə professor Zülfüqarlı bildirdi.

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***